**Vətən sağ olsun!**

# "Tarixdə yaşayan Qələbə!"

**2020-ci ilin payız günlərində şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında erməni işğalçıları üzərində qazandığı tarixi Zəfərdən beş il keçir. Ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığı sayəsində 44 gün ərzində qazanılan bu Zəfər Azərbaycan xalqına böyük sevinc yaşatdı. Üstündən beşillik zaman keçməsinə baxmayaraq, bu sevincin qığılcımları hələ də ürəklərdə, qəlblərdə dolaşır.**

Zəfər Günü ilə əlaqədar olaraq bu günlər bütün təhsil ocaqlarında, muzeylərdə, müəssisə və təşkilatlarda təntənəli mərasimlər keçirilir. Tədbir iştirakçılarına bu Zəfəri xalqımıza yaşadanların döyüş yollarından məlumat verilir, ön cəbhələrdə vuruşan zabit və əsgərlərimizin qəhrəmanlığından, igidliyindən ətraflı danışılır. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğulların xatirəsi hörmət və ehtiramla yad edilir.

Bu günlərdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Nəriman Nərimanovun Xatirə Muzeyində Zəfər Günü münasibətilə keçirilən "Tarixdə yaşayan Qələbə!" adlı tədbir maraqlı anları ilə yadda qalıb. Tədbirdə Vətən müharibəsi qazisi İsmayıl Əhmədzadə, şəhid Sübhan Abdurrahmanlının anası Mehriban Abdurrahmanlı, şəhid Füzuli Əliyevin anası Fərasət Əliyeva, 128 nömrəli tam orta məktəbin müəllimi Çiçək Nuriyeva və şagirdlər, 189-190 nömrəli tam orta məktəbin müəllimi Vəfa Rəfiağayeva və şagirdləri, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri, M.S.Ordubadinin Xatirə Muzeyinin əməkdaşları və başqa qonaqlar iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub. Sonra tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini oxuyublar.



Tədbiri muzeyin direktoru Ləman Hüseynova açaraq Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsindən, cəsur Vətən oğullarının döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışdı. Bildirdi ki, 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində Azərbaycanın düşmən üzərində qələbəsini hər şeydən əvvəl ölkəmizin iqtisadi gücü, qüdrətli ordusu, xalq və iqtidarın monolit birliyi təmin etdi. Vətən qeyrəti çəkən oğullar könüllü olaraq döyüşlərə yollandılar. 30 ilə yaxın torpaqlarımızı işğalda saxlayan Ermənistan silahlı qüvvələri güclü, qüdrətli ordumuzun qarşısında dayana bilməyərək məğlub oldu. Qəhrəman zabit və əsgərlərimiz bir an olsun belə hücumlarını dayandırmadılar. İşğalçılara sarsıdıcı zərbələr vuraraq addım-addım geri sıxışdırıb torpaqlarımızdan qovdular. İkinci Qarabağ müharibəsində qələbəyə köklənmiş qüdrətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın etdi. Döyüşlərdə qazanılan qələbələrə, zəfərlərə görə biz Müzəffər Ali Baş Komandan İlham Əliyevə, şəhidlərimizə və qazilərimizə minnətdarıq.

Çıxışlar başa çatdıqdan sonra Zəfər Gününün qürur və iftixar dolu anlarını özündə əks etdirən videoçarx nümayiş etdirildi.

Şəhid anaları çıxışlarında övladlarının vətənpərvərliyindən, qəhrəmanlığından ətraflı söhbət açdılar. Onların müqəddəs amallar uğrunda şəhid olduqlarını dedilər. Qazi İsmayıl Əhmədzadə keçdiyi döyüş yolundan, iştirakçısı olduğu əməliyyatlardan danışdı.

Tədbirin bədii hissəsində şagirdlərin ifasında vətənpərvərliyi və qəhrəmanlığı vəsf edən şeirlər səsləndirildi, iştirakçılara bədii kompozisiyalar və musiqi nömrələri təqdim olundu.

Sonda muzeyin rəhbərliyi tədbir iştirakçılarını təşəkkürnamələrlə mükafatlandırdı.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 7 noyabr (№ 238).- S.11.